Xalq qəzeti.- 2021.- 29 oktyabr.

# Türk Şurası yeni perspektivlərə doğru inamla irəliləyir

**2009-cu il oktyabrın 3-də həm Azərbaycanın, həm də türk dünyasının ən qədim mədəniyyət mərkəzlərindən olan Naxçıvanda təməli qoyulmuş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fəaliyyəti məlum arealda öz müsbət nəticələrini verməkdədir. Həmin arqumentin təsdiqini bu il martın 31-də Qazaxıstanın birinci prezidenti, Türk Şurasının fəxri sədri Nursultan Nazarbayevin təşəbbüsü ilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) videokonfrans formatında keçirilən qeyri-formal sammitinin materiallarında da gördük.**

*Gələn ay Azərbaycan Türk Şurasında sədrliyi Türkiyəyə təhvil verəcək. Əminəm ki, Türkiyə əziz qardaşımın rəhbərliyi ilə şuraya uğurlu sədrlik edəcək. Türk dövlətləri arasındakı əməkdaşlıq və qardaşlıq əlaqələri daha da güclənəcək, beləliklə, bütün türk dünyası üçün yeni imkanlar açılacaq.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
**26 oktyabr 2021-ci il**



Orada qeyd olunurdu ki, statistikaya görə, türk qrupuna aid ölkələr arasında ümumi qarşılıqlı ticarət dövriyyəsi təxminən 17 milyard ABŞ dolları təşkil edir. Bununla yanaşı, Azərbaycanla Türkiyə qarşılıqlı ticarətin həcmi baxımından lider ölkələrdir. Onların arasında ötən il ticarət dövriyyəsinin həcmi 4 milyard ABŞ dolları olub. İkinci və üçüncü yerlərin Qazaxıstan –Türkiyə və Özbəkistan – Qazaxıstan əlaqələri tutur – təxminən, 3 milyard ABŞ dolları.

Bu gün qarşıda duran əsas vəzifə türk dünyasının Avrasiya qitəsinin ən mühüm iqtisadi və mədəni məkanlarından birinə çevrilməsi üçün üzv ölkələrin yaxın illərdə inkişaf perspektivlərinin müəyyənləşdirilməsi, həmçinin Türküstanın türk dünyasının mənəvi paytaxtlarından biri seçilməsinin təşviqidir. Bundan başqa, ekspertlərin fikrincə, üfüqdə işartıları görünən Zəngəzur dəhlizi Türk Şurası çərçivəsində nəqliyyat əlaqələrinin inkişafı üçün lokomotiv rolu oynaya bilər. Yeni türk dünyasını möhtəşəm perspektivlər gözləyir.

Tarixçilər yazırlar ki, Türküstan ta qədimdən yalnız Mərkəzi Asiyada deyil, həm də bütün Avrasiyada vacib nəqliyyat arteriyalarının kəsişdiyi şəhər olub. O, tarixdə Böyük İpək Yolu kimi qalmış məşhur marşrutlar şəbəkəsinin tərkib hissəsi idi. Xüsusilə vurğulanır ki, Türküstanın türk dünyasının mənəvi paytaxtı seçilməsinin yeni rəmzi mənası da var. Belə ki, yeni İpək Yolu da bu şəhərdən keçir. Beləliklə, Türküstan türk dünyasının kiçik modelinə, Böyük Avrasiya üçün nəqliyyat habına çevrilir.

Üzv dövlətlərin qəbul etdiyi tarixi qərarlardan biri də "Türk dünyasının gələcəyi – 2040" adlı strategiyanın hazırlanması olmuşdur. Bildirilir ki, bu ideyanın təsdiqlənməsi çox qiymətli və vaxtında verilmiş qərardır. Qərar gələn ay Türk Şurasının Türkiyədə keçiriləcək sammitində təsdiqlənəcək. Yəni Türk Şurasının təşkilat səviyyəsinə qaldırılması, qurumun orta perspektiv üçün strategiyasının qəbulu, nəqliyyat əlaqələrinin təkmilləşdirilməsi sahəsində iddialı planların ortaya qoyulması xüsusi önəm daşıyır. Biz fəxr edirik ki, həmin proseslərin böyük əksəriyyəti Azərbaycanın TDƏŞ-ə sədrlik etdiyi müddətdə reallaşdırılmışdır. Elə bizim 44 günlük İkinci Qarabağ müharibəsindəki şanlı qələbəmizdə də başda Türkiyə Cümhuriyyəti olmaqla türkdilli dövlətlərin möhtəşəm siyasi və mənəvi dəstəyi olmuşdur.

Xatırladaq ki, bu il sentyabrın 10-da Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv dövlətlərin iqtisadiyyat nazirlərinin 10-cu görüşündə bu əməkdaşlıq platformasının mövcud reallıqları və gələcək perspektivləri geniş müzakirə olunmuşdur. Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Macarıstan nümayəndələrinin iştirak etdiyi tədbirdə qeyd edilmişdir ki, Azərbaycanda Türk Şurasına üzv ölkələrlə ticarət, investisiya əməkdaşlığı, iş adamları arasında əlaqələrə böyük önəm verilir. Azərbaycanın TDƏŞ-ə üzv ölkələr və Macarıstanla ticarət dövriyyəsinin həcmi ölkəmizin xarici ticarət dövriyyəsindəki payının, təxminən, 15 faizini təşkil edir. Təqdirəlayiq haldır ki, 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə, 2021-ci ilin yanvar-iyul aylarında Türk Şurasının üzv dövlətlərinə və Macarıstana qeyri-neft məhsullarının ixracı 75 faiz artıb.

Başqa bir fakt ondan ibarətdir ki, quruma Azərbaycanın rəhbərlik etdiyi dövrdə üzv ölkələr arasında ticarət və investisiya əlaqələrinə dair tədqiqat sənədi və Azərbaycanın dəstəyi ilə Türk ticarət evinin konsepsiyası hazırlanmış, Türk Ticarət və Sənaye Palatasının fəaliyyətinin təşviqi, Türk İnvestisiya Fondunun yaradılması istiqamətində mühüm irəliləyişlər əldə olunmuşdur.

İqtisadçı ekspertlər yazırlar ki. TDƏŞ-ə üzv ölkələrin qarşılıqlı investisiya yatırımı üçün böyük imkanlar mövcuddur. Eyni zamanda, bu imkanlardan yararlanmaq üçün mühüm addımlar atılır. Xüsusən, tranzit potensialının reallaşdırılması gündəlikdəki əsas məsələlərdən biridir. Bildirilir ki, TDƏŞ-ə üzv ölkələr Azərbaycanda yaradılan Ələt Azad İqtisadi Zonasının, sənaye zonalarının, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının imkanlarından faydalanmağa çalışırlar.

Maraqlıdır ki, TDƏŞ-ə üzv ölkələrin dövlət orqanları arasında Müxtəlif İqtisadi Zonalar sahəsində məlumat və təcrübə mübadiləsi haqqında anlaşma memorandumu da məhz Bakıda imzalanıb. Sənəd təşkilat daxilində ümumi rəqəmsal platformanın təşkilinə töhfə verəcək, zonaların strateji inkişafı üçün məlumatların mübadiləsi və məsləhətləşmələrin aparılması imkanlarını yaratmaqla, xarici investisiyaların cəlb edilməsi istiqamətində uğurlu iqtisadi model tətbiq etməyə şərait yaradacaq.

Xatırladaq ki, TDƏŞ-in Naxçıvan Sazişi ilə müəyyən edilmiş əsas məqsəd və vəzifələri "Tərəflər arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi", "Regionda və dünyada sülhün bərqərar edilməsi", "Xarici siyasət məsələlərinə ortaq yanaşmanın təşviq edilməsi", "Beynəlxalq terrorizm, separatçılıq, ekstremizm və transmilli cinayətkarlığa qarşı mübarizənin əlaqələndirilməsi", "Ortaq maraq kəsb edən bütün sahələrdə regional və ikitərəfli əməkdaşlığın gücləndirilməsi", "Ticarət əlaqələri və investisiyalar üçün əlverişli şəraitin yaradılması" və digər bu kimi hamı üçün maraqlı olan məsələlərdir.

Həmin vəzifələrin həyata keçirilməsi ilə Dövlət Başçıları Şurası, Xarici İşlər Nazirləri Şurası, Yüksək Vəzifəli Şəxslər Komitəsi, Ağsaqqallar Şurası, Katiblik, Koordinasiya Komitəsi və Türk Şurasının Budapeştdəki Nümayəndəlik Ofisi məşğul olur. Dövlət Başçıları Şurasının iclasına evsahibliyi edən üzv ölkə növbəti zirvə görüşünədək TDƏŞ-ə sədrlik edir.

Bu qurumla əlaqəli orqan və təşkiltlar – qərargahı Ankarada yerləşən TÜRKSOY, İstanbul sazişi əsasında yaradılmış TÜRKPA (Türkdilli Ölkələrin Parlament Assambleyası), 2010-cu ildə Qazaxıstanda qeydiyyatdan keçmiş Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, Türk Biznes Şurası və Türk Ticarət və Sənaye Palatası əməkdaşlığın hərtərəfli olduğunun göstəricisidir.

Daha iki mühüm faktı xatırladaq.

**Birinci:** TDƏŞ beynəlxalq təşkilatlarla əməkdaşlığa böyük əhəmiyyət verir. Təşkilat artıq İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, ATƏT, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsi, BMT, Ümumdünya Turizm Təşkilatı ilə əlaqələr qurmuşdur. Şəxsən mən Azərbaycanın belə bir təşkilata sədrliyindən iftixar hissi duyuram.

**İkinci:** Bu qurum Ermənistanla Azərbaycan arasındakı münaqişə ilə bağlı həmişə Azərbaycanın haqlı mövqeyini dəstəkləmişdir. TDƏŞ katibliyi 2020-ci ilin iyul ayında baş vermiş Tovuz hadisələri və 27 sentyabr tarixindən başlayaraq Ermənistan tərəfindən həyata keçirilən təxribatlarla bağlı mütəmadi olaraq bəyanatlar vermiş, TDƏŞ-in baş katibi Bağdad Amreyev 2020-ci il oktyabrın 20-də Gəncəyə gəlmiş və Ermənistan tərəfindən şəhərin raket atəşinə tutulması ilə bağlı türk dünyası adından həmrəyliyi nümayiş etdirən bəyanatla çıxış etmişdir. Eyni zamanda, TDƏŞ nümayəndə heyəti işğaldan azad edilmiş Ağdam və Füzuli rayonlarına da səfər etmişdir.

Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev TDƏŞ-in 2019-cu il oktyabrın 15-də Bakıda keçirilmiş VII Zirvə görüşündəki nitqində demişdi: "Azərbaycan bu gündən Şuraya sədrliyi öz üzərinə götürür. Sizi əmin etmək istəyirəm, biz var gücümüzlə çalışacağıq ki, növbəti bir il ərzində təşkilatımız daha da güclənsin və qarşıda duran bütün vəzifələr uğurla icra edilsin".

Nəticələr göz qabağındadır. Bütün vəzifələr uğurla icra edilmişdir. Noyabrın 12-də isə sədrlik qardaş Türkiyəyə keçir. Yəni növbəti nailiyyətlərə şahidlik edəcəyik. Uğurlar, türk dünyası!

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***